28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR!

20 (1275) 25-31 may 2023-cü il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

BU GÜN BİZ GENİŞ FİKİR MÜBADİLƏSİ ƏSNASINDA LİTVA İLƏ STRATEJİ TƏRƏFDAŞLIĞIMIZI BİR DAHA TƏSDİQLƏDİK



"Bu gün biz geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələləri müzakirə etdik, bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqlədik. Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni, bu, özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında deyib.

Siyasi müstəvidə əldə edilmiş razılaşmaların bütün digər sahələrə də müsbət təsirini göstərdiyini vurğulayan dövlətimizin başçısı bildirib: *"Biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək. Əminəm ki, bu gün keçiriləcək biznes forum bu istiqamətdə atılan önəmli addım olacaqdır".*

"AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA SÜLH ANLAŞMASININ İMZALANMASI QAÇILMAZDIR"

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib.

Bəyanatında Azərbaycan torpaqlarının uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında olduğunu bir daha xatırladan dövlətimizin başçısı qeyd edib: *"Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir".*

"MÜASİR İNFRASTRUKTURUMUZ AZƏRBAYCAN ƏRAZİSİNDƏN KEÇƏN TRANZİT YÜKLƏRİN HƏCMİNİN İLDƏN-İLƏ ARTMASINA İMKAN YARADIR"

"Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib. Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin ildən-ilə artdığını və artacağını qeyd edən Azərbaycan Prezidenti deyib: *"Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Sadəcə olaraq, biz birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq".*

"Aİ-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN İNKİŞAFI ÜÇÜN GÖSTƏRDİYİ SƏYLƏRƏ GÖRƏ LİTVAYA TƏŞƏKKÜRÜMÜZÜ BİLDİRİRİK"

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib.

Ötən ilin mayında Litva Prezidentinin ölkəmizə səfərindən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlət başçısı hazırda bu memorandumun uğurla icra edildiyini vurğulayıb: *"Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni, ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq".*

"HƏM LİTVADA, HƏM DƏ AZƏRBAYCANDA BƏRPA OLUNAN ENERJİ NÖVLƏRİNİN YARADILMASINA ÇOX BÖYÜK DİQQƏT GÖSTƏRİLİR"

"Biz bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpa olunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib. *"Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq"*, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

"BİZ SÜLHÜ, SABİTLİYİ, PARLAMENT DİPLOMATİYASINI TƏŞVİQ EDİRİK"

Bunu jurnalistlərə müsahibəsində ATƏT Parlament Assambleyasının (PA) prezidenti xanım Marqareta Sederfelt deyib.

"Açılış mərasimində Monteneqro parlamentinin sədri iştirak etdi və onlar yaşıl iqtisadiyyat mövzusunu alqışladılar. Müşahidə etdim ki, bu konfransda ATƏT Parlament Assambleyasından, Avstriya, İtaliya, Qazaxıstandan çoxlu həmkarlarım iştirak edirlər", - deyə Marqareta Sederfelt qeyd edib.



Onun sözlərinə görə, parlamentarilər arasında yaşıl inkişafa maraq böyükdür.

"LİTVA AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAFININ TƏRƏFDARIDIR"

Bu fikri Litva Prezidenti Gitanas Nauseda mayın 22-də Vilnüsdə mətbuata bəyanatında bildirib.

"Biz Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də strateji tərəfdaşlığımızın inkişafı üçün yeni imkanlar axtarmalıyıq. Biz Avropa İttifaqının Azərbaycan ilə enerji sahəsində əməkdaşlığı müsbət qiymətləndiririk. Bu əməkdaşlıq Avropa İttifaqının enerji bazarına müsbət təsir göstərmiş, həmçinin Avropa İttifaqının qış ayları üçün təchizatını təmin etmişdir", - deyə Litva Prezidenti qeyd edib.





"PREZİDENT İLHAM ƏLİYEVİN SƏFƏRİ AZƏRBAYCAN İLƏ LİTVA ARASINDA MÜNASİBƏTLƏRƏ YENİ MÜSBƏT DİNAMİKA ƏLAVƏ EDƏCƏK"

Bu fikri Litva Prezidenti Gitanas Nauseda mayın 22-də Vilnüsdə mətbuata bəyanatında bildirib.

Bir il əvvəl Azərbaycana səfəri çərçivəsində ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadiyyat və təhsil sahələrində əlaqələrimizin gücləndirilməsi barədə əhəmiyyətli müzakirələrin aparıldığını vurğulayan Litva Prezidenti deyib: **"Bu gün cənab Prezident Əliyev ilə mən ikinci Litva-Azərbaycan biznes forumunun açılışını edəcəyik. Əminəm ki, bu platformada iqtisadi sahədə yeni imkanlar yaranacaqdır. Eyni zamanda, bu gün ətraf mühit, gənclər və hüquq-mühafizə sahələrində də Litva ilə Azərbaycan arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir".**

"AZƏRBAYCAN İQTİSADİYYATI SABİTDİR, MÜNBİT İNVESTİSİYA ŞƏRAİTİ VAR VƏ O, TƏBİİ SƏRVƏTLƏRƏ ƏSASLANIR"

Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva biznes forumunda səsləndirib.

O, deyib: - Bu gün biz cənab Prezidentlə əməkdaşlıq üçün potensial sahələri geniş şəkildə müzakirə etdik. Fikrimcə, potensial həqiqətən var. Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə - Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var. Hər iki ölkə bu məsələni gündəliyimizə daxil edib. Bizə gəldikdə, bizdə enerji təhlükəsizliyi mövcuddur. Lakin, bununla belə, biz ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətimizin günəş və külək enerjilərindən istifadə etmək istərdik. Xüsusən də, nəzərə alsaq ki, ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar. Biz onun əsasında 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacaq. Fikrimcə, bu, minimal həddi təşkil edir, çünki potensial çoxdur. Biz mövcud yataqlardan daha çox qaz hasil edirik. Bu yaxınlarda Xəzərdə ən iri yataqlardan birində hasilatın başlanmasını elan edəcəyik. Həmçinin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələr təbii qaza ixrac məqsədləri üçün qənaət etmək imkanını yaradacaq.

Buna görə Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir. Biz Azərbaycanın və Avropa Komissiyasının daha yaxın olmaq səylərinə verdikləri daimi dəstəyə görə litvalı dostlarımıza və tərəfdaşlarımıza minnətdarıq.

Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu, mümkündür.

"Türkiyənin digər vilayətlərində inşa olunacaq xətlər Bakı-Tbilisi-Qarsa birləşəcək"



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Sivas şəhərində xalqa müraciəti zamanı bildirib. Onun sözlərinə görə, Türkiyə Dəmir İpək Yolu kimi ifadə edilən dəmiryolu xəttini Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə birləşdirəcək: ***"Bu gün sürətli qatardan Sivas xalqı yararlanır, bundan Ərzincan və Tokatdan olan sakinlərimiz də faydalanacaqlar. Yəni bu xətti Ərzincan, Ərzurum və Qarsa qədər uzadacağıq. İnşallah, oradan da Bakı-Tbilisi-Qars dəmiryolu xəttinə birləşdirəcəyik. Biz Dəmir İpək Yolu kimi ifadə edilən bu xətlə regionumuzda dünya miqyasında əhəmiyyət kəsb edən strateji nəfəs borusu açacağıq. Bütün bunları CHP sədri kimi Azərbaycanı sıradan çıxarmaqla yox, azərbaycanlı qardaşlarımızla çiyin-çiyinə edəcəyik. Necə ki Qarabağı birlikdə azad etdik, Türkiyəni şərqlə qərb arasında enerji mərkəzi etdik. Biz də azərbaycanlı qardaşlarımızla nəqliyyat infrastrukturumuzu inkişaf etdirəcəyik".***

Ötən il dövlət büdcəsinin gəlirləri proqnozdan 5% çox olub

2022-ci ildə dövlət büdcəsinin icrasına dair göstəricilər açıqlanıb. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"da yer alıb.



Qeyd edilib ki, 2022-ci il üçün dövlət büdcəsinin gəlirləri 30679.6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 5.1 faiz çox, xərcləri 32064.6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 0.7 faiz az və müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1385.0 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55.4 faiz az olub. 2022-ci il dövlət büdcəsinin gəlirləri 29197.8 milyon manat proqnoza qarşı 30679.6 milyon manat və ya 1481.8 milyon manat (5.1 faiz), 2021-ci ilin dövlət büdcəsinin faktiki gəlirləri ilə müqayisədə isə 4283.4 milyon manat və ya 16.2 faiz çox icra olunub. Dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 22.9 faiz təşkil edib.

BEYNƏLXALQ KONFRANSDA "YAŞIL" İQTİSADİYYATDA MİLLİ PARLAMENTLƏRİN ROLU MÜZAKİRƏ EDİLİB

Mayın 22-də Milli Məclisin və ATƏT Parlament Assambleyasının (PA) birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans keçirilib.

Konfransın açılış mərasimində Milli Məclisin deputatı, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadi məsələlər, Elm, Texnologiya və Ətraf Mühit üzrə Baş Komitəsinin sədri Azay Quliyev ATƏT-in 27 müxtəlif ölkəsindən və 4 beynəlxalq təşkilatdan bir çox nümayəndələrin toplantıya qatıldığını söyləyib.

O milli iqtisadiyyatlarda "yaşıl" prinsiplərin həyata keçirilməsində parlamentlərin rolu, bu sahədə əlaqələrin, davamlı inkişafla bağlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Azərbaycanın həyata keçirdiyi irimiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi Orta Dəhlizdə əsas beynəlxalq nəqliyyat-logistika qovşaqlarından birinə çevirib. Nəqliyyat prosedurlarının sadələşdirilməsi, milli və beynəlxalq hüquqi müddəalardakı boşluqların və çatışmazlıqların aradan qaldırılması kimi praktik tədbirlərin görülməsi dəhliz boyunca ticarət əlaqələrini və biznes fəaliyyətini daha da genişləndirəcək.

Sonra konfransın açılış mərasimində ATƏT PA-nın sədri Marqareta Sederfelt, Monteneqro Parlamentinin sədri Daniyela Curoviç, ATƏT PA-nın Baş katibi Roberto Montella çıxış ediblər.

Konfrans öz işini panellərdə davam etdirib.

"BAKIDA BİR ARAYA TOPLAŞMAĞIMIZ TƏQDİRƏLAYİQDİR"

Bu sözləri Monteneqro parlamentinin sədri Daniela Djuroviç mayın 22-də Bakıda keçirilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, hər gün planetlərimizin təbii sərvətlərini bəxşiş olaraq görməli və bu sərvətlərin gələcək nəsillərə çatdırılması üçün xüsusi addımlar atmalıyıq.

"Bir neçə gün ərzində çox gözəl fürsətimiz olacaq ki, ekoloji və iqtisadi sahədə əməkdaşlıq məsələlərini müzakirə edək. Məlumdur ki, artıq dünyamız çoxsaylı və qarşılıqlı problemlərlə üzləşir. Bunlar arasında qlobal, ekoloji, nəqliyyat-infrastruktur və sosial bərabərsizlik kimi məsələlər var", - deyə Daniela Djuroviç vurğulayıb.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ "BAKI ÜRƏK GÜNLƏRİ" 8-Cİ BEYNƏLXALQ KONQRESİ KEÇİRİLİB

Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin (AÜDCC) təşkilatçılığı ilə mayın 19-dan 21-dək keçirilən konqresin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubunu oxuyub.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov keçirilən konfransın Azərbaycan tibbi və elmi üçün vacibliyini vurğulayaraq, ürək-damar xəstəlikləri kimi problemlərin ölkəmizdə aktuallığını, Prezident İlham Əliyevin konqres ilə bağlı məktubunun bu sahənin vacibliyinin ən bariz nümunəsi olduğunu qeyd edib.

Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev, Səhiyyə nazirinin müavini Rasim İsmayılov, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Kamran Musayev, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə iştirak ediblər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanov çıxış ediblər, "Bakı Ürək Günləri" Beynəlxalq Konqresinin fəxri qonağı, vaxtilə Klivlend klinikasında Ulu Öndərin həkimi olan məşhur kardioloq, professor Murat Tuzcu Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Qeyd edək ki, konqres elmi hissə ilə davam edib.

Azərbaycan Litva ilə birgə investor qismində işləməyə hazırdır

"Litva ilə birgə investor qismində işləməyə hazırıq".

Bunu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov Vilnüsdə keçirilən Azəbaycan-Litva biznes-forumunda deyib.

"Azərbaycanla Litva arasında bir sıra saziş mövcuddur. Biz Azərbaycanda iqtisadiyyatın və ixracın diversifikasiyasını hədəfləyirik. Son 4 il ərzində qeyri-neft ixracını ikiqat artırmışıq", - o deyib.

O son dörd il ərzində özəl qeyri-neft sektorunda iş yerlərinin sayının 7 faiz artdığını qeyd edib.

"Azərbaycanda müştərilər üçün avadanlıq idxalına sıfır vergi faizinin qoyulması üzrə çox cəlbedici tədbirlər toplusu mövcuddur. Həmçinin sənaye proqramı üzrə fəaliyyət göstərən şirkətlər üçün 10 il müddətinə vergi faizləri azaldılır. Burada bizim üçün prioritet sənaye sektoru, həmçinin nəqliyyatdır. "Yaşıl" enerjiyə keçid Azərbaycan iqtisadiyyatına çox müsbət təsir göstərir, çünki biz ənənəvi neft-qaz ixracına əlavə olaraq həm də bərpa olunan enerji mənbələrinin ixracı üzərində çalışırıq", - deyə M.Cabbarov əlavə edib.



Büdcədən dövlət müəssisələrinə ayrılan subsidiyalar 25% artıb

2022-ci ildə Azərbaycanın dövlət büdcəsində subsidiyalar üzrə 1 401.7 milyon manat vəsait icra edilib ki, bu da proqnozla müqayisədə 2.6% az, 2021-ci ilin icrasına nisbətən isə 1.2% çoxdur.

Bu barədə Hesablama Palatasının "2022-ci ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və "2022-ci ilin dövlət büdcəsinin icrasına dair illik hesabata" verdiyi rəydə bildirilir.

Subsidiyanın əvvəlki illə müqayisədə artımı dövlət müəssisələrinə subsidiya-ların 25% artımı, qeyri-dövlət müəssisələrinə və hüquqi şəxslərə digər subsidiya-ların isə müvafiq olaraq 26.6% və 13% azalması fonunda baş verib.

Dövlət müəssisələrinə subsidiyaların əhəmiyyətli artımı nəticəsində bu subsidiya-ların cəmi subsidiyalarda payı 9.5% bəndi artaraq 49.8%-ə yüksəlib və ən yüksək xüsusi çəkiyə sahib olub.

"Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir".

Heydər ƏLİYEV

Bizi 1918-ci ildən - Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından 105 illik zaman ayırır. XX əsrin ilk onilliyində Şərqdə ilk demokratik respublika yaradılması tariximizin ən qürurverici, ən işıqlı səhifələrindən biri kimi yaddaşlarda qalacaq. Lakin 70 ildən çox Sovet rejimində yaşamağa məhkum edilmiş xalqımız yalnız müstəqillik qazandıqdan sonra tarixinin bu şərəfli səhifələrini vərəqləməyə müvəffəq ola bildi.



Azərbaycan Parlamentinin işçiləri

1991-ci ildə dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra AXC, onun qurucuları, onların fəaliyyəti haqqında məlumatlar,tarixi faktlar, arxiv sənədləri üzə çıxarılmağa başladı. Arxivlərin qaranlıq küncündə illərdən bəri ört-basdır edilən gizli materiallar, nəhayət ki, işıq üzü gördü. Və biz gərgin və ziddiyyətli bir dövrdə dövlət quruculuğuna nail olmuş böyük ziyalılarımızı, görkəmli dövlət xadimlərimizi tanımağa başladıq. Onlar həm ölkə daxilində olan, həm də xaricdən gələn təhlükələrlə qarşılaşaraq, böyük cəsarət, fədakarlıq tələb edən çox "ilklər"ə imza atdılar: **ilk hökumət, ilk parlament yaratdılar, müstəqil dövlət qurdular, Cümhuriyyətin 23 aylıq fəaliyyəti dövründə ölkənin ərazi bütövlüyü uğrunda mübarizə apardılar, müstəqil dövlətin ilk Milli Ordusunu təşkil etdilər.**

1918-ci il mayın 28-də Milli Şuranın tarixi iclasında Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi. Azərbaycan istiqlal mübarizəsinin ən dəyərli sənədi olan bu bəyannamə türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda parlamentli respublika yaradılmasını əks etdirirdi. Azərbaycan parlamenti keçirdiyi 145 iclasda müstəqilliyi qoruyub saxlamaq, insan hüquq və azadlıqlarını özündə əks etdirən ən müasir hüquqi dövlət qurmaq məqsədi daşıyan 200-dən artıq qanun və qərarlar qəbul etdi. Olduqca mürəkkəb və təhlükəli daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərən AXC ölkənin xarici siyasətində, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarifçilik həyatında fəal işlərgördü. Bir çox xarici ölkələrdə diplomatik nümayəndəliklər açıldı. AXC yaradıcıları tez bir zamanda Azərbaycanın beynəlxalq aləmdə tanınmasına müvəffəq oldular, gənc müstəqil ölkəni mötəbər siyasi tədbirlərdə təmsil etdilər. Böyük təzyiqlər altında 1919-cu ildə Paris Sülh konfransında AXC-nın de-fakto tanınmasına nail oldular. Cümhuriyyət dövründə Azərbaycan dili dövlət dili elan edildi, müstəqil dövlətin rəmzləri təsis edildi, üçrəngli bayrağı dalğalandı, dövlət gerbi təsdiqləndi, istiqlal marşı səsləndirildi.

Lakin 11-ci Qırmızı ordunun 1920-ci il Aprel işğalı Cümhuriyyət yaradanların boyük arzularını puç etdi, demokratik dövlət quruculuğu uğrunda gördüyü mütərəqqi işlərini yarımçıq qoydu. Görkəmli ziyalıları, nüfuzlu ictimai-siyasi xadimləri ölkədə yeni hökumət tərəfindən amansız təqiblər, işgəncələr gözləyirdi, bəziləri isə xüsusi təhlükə hesab edilərək, xain düşmən gülləsinə tuş gəldilər. Həmin vaxtlarda xarici ölkələrdə olan dövlət və ictimai xadimlərin bir qismi artıq vətənə geri dönə bilmədilər və siyasi mühacir həyatı yaşamağa məhkum oldular. Lakin onlar azadlıq, istiqlal mücadiləsini bir an belə dayandırmadılar. Vətəndən uzaqlarda, mühacirətdə olsalar da, qəlbləri vətənə dönmək həsrətilə döyündü, haqq işlərinə, istiqlalın bərpa olunacağına, Sovet rejiminin əsarəti altında yaşamağın uzun sürməyəcəyinə inanaraq mübarizələrini, fəaliyyətlərini davam etdirdilər.

Sovet hakimiyyəti illərində adlarının belə çəkilməsi yasaq edilən xalqın ziyalıları, dövlət xadimləri, ictimai-siyasi simaları haqqında məlumatları yalnız müstəqilliyimiz bərpa edildikdən sonra əldə edə bilmişik, indi onların hər birinin gördüyü işlər barədə dolğun təsəvvürümüz var. Hər biri yüksək ziyalı, müxtəlif ölkələrin nüfuzlu təhsil ocaqlarında ali təhsil almış, bir neçə xarici dilə mükəmməl yiyələnmiş, dövrünün görkəmli şəxsiyyətləri, mütərəqqi, maarifçi insanlar idilər. Xalqının gələcəyini firavan, müstəqil, azad, savadlı görmək idi amalları...

Bu ötən illər ərzində onların fəaliyyəti haqda yeni mənbələr, sənədlər aşkar edildi, daha neçə-neçə yeni faktlar üzə çıxarıldı, Cümhuriyyət qurucularının bu xalqa göstərdiyi misilsiz xidmət öz tarixi qiymətini aldı.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi: *"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay ərzində fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddət ərzində həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz izlər buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır"*, - sözləri AXC-nin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

2018-ci ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Cümhuriyyət ili" elan edilməsi bütövlükdə hamının və hər bir vətəndaşın qarşısında bir vəzifə, Cümhuriyyət qurucularının xatirəsi önündə mənəvi borc qoydu. 2018-ci il mayın 28-də Cümhuriyyətin 100 yaşı böyük təntənə ilə qeyd edildi.

İyunun 26-da Milli Ordumuzun yaradılmasının 100 illiyi münasibətilə möhtəşəm parad keçirildi. Sentyabrın 15-də hər bir Bakı sakini Qafqaz İslam Ordusunun Bakı şəhərinin işğaldan azad olunmasının 100-cü ildönümü şərəfinə təşkil edilmiş zəfər yürüşünün şahidi oldu. 2018-ci ildə həm ölkəmizdə, həm də dünyanın bir çox ölkələrində yüksək səviyyədə yubiley tədbirləri keçirildi.

Biz bir daha Cümhuriyyətin bizə miras qoyub getdiyi tariximizi və hüquqi dövlətçilik ənənələrimizi yaşatmalı, inkişaf etdirməliyik. Möhtərəm Prezidentimiz İlham Əliyevin AXC-nin 100 illiyinə həsr olunmuş tədbirdə dediyi kimi: *"Bu gün hansı sahəyə baxsan, inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsaydılar, onlar da ölkəmizlə fəxr edərdilər.*

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillikən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".

2020-ci ildə mənfur qonşularımızın işğalçı siyasətinə qarşı 44 günlük Vətən müharibəsindəki möhtəşəm qələbəmiz isə bir daha sübut etdi ki, Azərbaycan dövləti artıq çox güclüdür və Azərbaycan əsgəri doğma torpaqları uğrunda canından keçərək vətənini qorumağa qadirdir. 8 noyabr 2022-ci il Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə Ali baş komandan İlham Əliyevin dediyi kimi: *"Bu qələbə, bu zəfər bizə bu imkanı verdi,- bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik".*

Aytən Səmədzadə



Честный разговор Эльчина Алиева: процветают лишь «связанные» с чиновниками личные компании

На днях получил приглашение на открытие 19 мая павильона одной из стран бывшего СССР, нашей соседки, на Международном архитектурном биеннале в Венеции – престижной выставке достижений ведущих архитектурно-строительных школ мира. Представлен ли на нём Азербайджан? Нет. Через полтора месяца в столице Дании Копенгагене пройдёт Всемирный конгресс архитекторов, куда в качестве «туристов» за государственный счёт направляется большая группа т.н. «архитекторов» из Баку. Будет ли продемонстрирована выставка достижений нашей страны в области архитектуры, современных проектов? Риторический вопрос.

Хотя в наши дни в Азербайджане реализуется огромный, невиданный не только в истории страны, но и, возможно, в мировой практике одномоментный колоссальный объём работ по новому проектированию и строительству.

Происходящие подобные события в Азербайджане - уникальный шанс для местных специалистов наглядно на ведущих мировых площадках в Венеции и Копенгагене показать свои проекты, свой профессионализм, рассказать о достижениях в восстановлении страны! Ведь сегодня вся страна объединена идеей возрождения из руин разрушенных населенных пунктов: реконструируются и проектируются новые города, посёлки, вокзалы, аэропорты, жилые



комплексы…

Однако города строятся, посёлки восстанавливаются, новые огромные проекты презентуются, но... в подавляющей своей массе азербайджанские компании сидят без работы! С кем ни общаешься - жалуются на тяжелую жизнь, безденежье, на чиновников «от архитектуры», не сумевших (или скорее всего не захотевших) создать чёткую и прозрачную, всем остальным понятную систему распределения заказов.

По какому принципу выбираются архитекторы и строители? По какому принципу распределяются заказы? Какие изменения произошли в области архитектуры за последнее десятилетие? Отвечу: как не существовало в стране честного и прозрачного архитектурно-строительного рынка, так он и не появился.

Как не обсуждали реальные проблемы, волнующие архитекторов и строителей страны, так за десятилетия ничего и не изменилось.

Как не велось в стране общественного обсуждения проектов, так и не ведётся.

Как не проводились архитектурные конкурсы в стране, так и не проводятся – все подряды распределяются строго кулуарно. В итоге: никогда уровень школы азербайджанских архитекторов не был так низок на международном уровне, даже по сравнению с ближайшими соседями по Южному Кавказу, и именно из-за этого мы перестали участвовать в международных конкурсах и посещаем их только в качестве туристов. Всё это сильно ударяет по имиджу страны!

По какому принципу в Баку выбираются архитекторы и строители?

Сложилась неприятная ситуация: каждый чиновник имеет при себе «свою» архитектурную или строительную компанию, получающую заказы. Никогда ни один из председателей Союза архитекторов – а ими за последние полвека были великий Микаэль Усейнов, Назим Гаджибеков, Ильхам Исмаил оглы Алиев, Хафиз Амирханов, Аббас Алескеров – не позволяли себе превращения организации в источник материальных благ для себя лично и своего ближнего окружения, не лоббировали свои собственные интересы перед другими государственными структурами. Сегодня же частная компания, учреждённая председателем вместе со своим сыном, выигрывает странные тендеры…

За прошедшие десять лет в стране не осталось НИ ОДНОЙ независимой архитектурной компании, в которой работало бы более нескольких человек! Процветают только «связанные» с чиновниками их личные организации.

Дошло до того, что подряды на работы по проектированию даже генеральных планов в Карабахе получают чисто дизайнерские компании-однодневки, неизвестно кем учреждённые! Итог подобной пагубной политики – отсутствие качественных и современных проектов местных зодчих и обидное отсутствие Азербайджана на ведущих мировых архитектурных площадках.

После освобождения Карабаха ценой колоссальных усилий всего общества, мотивированного в том числе выверенной линией президента Ильхама Алиева на восстановление территориальной целостности страны, мы должны были продемонстрировать всему миру пример модели отношений современного и развитого будущего Азербайджана, в котором ценятся профессионализм и знания, честность и порядочность, страны, свободной от коррупции и протекционизма.

А каков итог, мягко говоря, «неправильной» политики в области строительства и архитектуры, когда в стране почти не осталось независимых компаний, под диктатом чиновников вынужденных переносить основную свою деятельность за границу? С болью в сердце смотришь на масштабные реализуемые строительные проекты азербайджанских бизнесменов в Турции, Грузии, других странах, в которых созданы привлекательные, абсолютно прозрачные, свободные от вымогательства и примитивных устаревших законодательных требований к условиям ведения бизнеса условия!

Кто будет реализовывать все наши грандиозные строительные планы в Карабахе в ближайшие годы, если на самом деле качественно, ответственно и профессионально относящихся к своему труду строительных компаний, оставшихся в стране, можно пересчитать по пальцам одной руки?

Необходимы не полумеры, а коренные реформы в области проектирования и строительства. Мы, на мой взгляд, единственная развитая страна в Европе, где на проектировщика налагаются сотни необоснованных ограничений из «каменного» прошлого. Неужели на третьем десятке лет восстановления независимости невозможно разработать действительно современные и чёткие правила и требования? Полный хаос, в котором не может разобраться ни один профессионал, приводящий к тому, что даже сами проверяющие не могут в них ориентироваться, предъявляя порою разные нормативные требования к, по сути, одинаковым проектам! К слову, даже российские власти отказались от СНиПов (Строительные нормы и правила) советского времени, на которых мы до сих пор в основном базируемся и «творчески» совершенствуем. Да возьмите и примите турецкие нормативы – будет намного больше пользы!

Почему мы не можем действовать на дальнюю перспективу, вкладывать деньги в качественные проекты, без приоритета сиюминутной выгоды?

Во всём мире смета здания высчитывается по принципу: стоимость строительства плюс затраты на 15-20 лет эксплуатации – а у нас только по сегодняшним расходам: минимум вложений, максимум чиновничьего пиара, не думая о завтрашнем дне.

Почему мы в XXI веке, под пристальным вниманием всего мира, строим для будущих поколений убогие «позавчерашние» проекты, с самыми примитивными жилищными условиями, с туалетами во дворе без душевых, с малюсенькими комнатками, где еле-еле помещается одна кровать? Чем вызваны многочисленные ограничения для проектировщиков и строителей, приводящие к примитивизму реализованных проектов?

Эльчин Алиев,
архитектор, специально для haqqin.az
20 мая 2023 г.

Азербайджан отозвал посла в Украине



Распоряжением президента Азербайджана Ильхама Алиева Сеймур Мардалиев назначен чрезвычайным и полномочным послом в Украине.

Президент Ильхам Алиев подписал распоряжение об отзыве Эльмиры Ахундовой с должности чрезвычайного и полномочного посла Азербайджана в Украине. Текст распоряжения опубликован на сайте главы государства.

Ахундова также освобождена от должности постпреда Азербайджана при Организации за демократию и экономическое развитие (ГУАМ).

Другим распоряжением главы государства Сеймур Мардалиев отозван с должности заместителя постоянного представителя Азербайджана в Отделении ООН и других международных организациях в Женеве.

"Высокоскоростная железнодорожная линия протянется до Баку"

Турция будет и впредь развивать инфраструктуру транспортных коммуникаций с братским Азербайджаном. Об этом заявил президент Турции Реджеп Тайип Эрдоган, комментируя невключение Азербайджана в проект «возрождения Шелкового пути» кандидатом на пост главы государства Кемалем Кылычдароглу.

«Турция будет развивать инфраструктуру транспортных коммуникаций с азербайджанскими братьями, несмотря на то, что генсек РНП игнорирует Карабах и Зангезурский коридор», - цитирует слова турецкого президента Anadolu.

Эрдоган анонсировал строительство на территории Турции высокоскоростной железнодорожной магистрали, которая протянется до Баку.



«Выехавший из Лондона сможет через нашу страну добраться до Пекина. Безусловно, мы будем реализовывать все это, не исключая Азербайджан, а плечом к плечу с ним», - заявил турецкий лидер.

Инвесторы потребовали от McDonald's сократить использование антибиотиков



Крупнейшие в Европе инвестиционные компании Legal & General и Amundi потребовали от McDonald's сократить использование антибиотиков в производстве из-за риска выработки у потребителей резистентности к противомикробным препаратам. Их применение представляет серьезную, по оценке инвесторов, угрозу для доходов акционеров и экономики в целом, сообщает в понедельник газета Financial Times. По словам представителя Amundi Каролин Ле Мо, устойчивость к антибиотикам стала "существенным фактором" в пищевой промышленности и может "привести к высокой смертности в будущем". Всемирный банк в 2016 году спрогнозировал снижение мирового ВВП на 3,8% в год, если рост устойчивости к антибиотикам продолжится. В этой связи инвестиционные компании намерены поддержать резолюцию, призывающую американскую группу "соблюдать рекомендации Всемирной организации здравоохранения по использованию важных противомикробных препаратов". Голосование по этому документу, разработанному общественной правозащитной организацией Shareholder Commons, состоится в четверг на ежегодном собрании акционеров сети ресторанов быстрого питания. McDonald's настаивает на "ответственном использовании антибиотиков" и призывает акционеров проголосовать против резолюции. В 2022 году аналогичное предложение не получило поддержки со стороны двух ключевых акционеров гиганта - инвестиционных фондов Vanguard и BlackRock.

İNTERNET MƏKANINDA MƏLUMATLARIMIZI NECƏ QORUYA BİLƏRİK?

İnsanların bir-birinə etimadı olsaydı, nə qapılarda kilidə, nə də giriş şifrələrinə ehtiyac olardı...


Çox təəssüflər olsun ki, bəzi insanlar öz qabiliyyətlərini mənfi istiqamətə xərcləməkdən narahat olmurlar. Öz bacarıqlarını kiminsə cibinə girərək, hesab və digər məlumatlarını oğurlayaraq, bunlardan təhdid və ya digər məqsədlərlə istifadə edərək, diqqət çəkməyə çalışır və ya maddi qazanc əldə edərək, bunu fəxr ediləsi bir məsələ hesab edirlər. Əgər dünyada insanların bir-birinə etimadı olsaydı, nə qapılarda kilidə, nə də giriş şifrələrinə ehtiyac olardı. Bu formada fikir yazaraq, Tomas Morun (Thomas More) utopiyasına alternativ fikirlər qeyd etmək istəmirəm. Amma xakerlik istəyinin arxasında bəlkə də uşaqlıqdan qalan natamamlıq hissinin tamamlanması və diqqət çəkmək, sonra da bunu qazanc mənbəyinə çevirmək vardır.

Yaxşı ki, "Etik xakerlik" anlayışı artıq mövcuddur. İdeal dünyada yaşamadığımız üçün arzu ediləndir ki, uşaqlarda, gənclərdə bu tipli marağı hiss edən böyüklər, onları bu istiqamətə yönləndirə bilərlər. Hər şeyin təməli təbii ki, təhsildir. Düzgün təhsil bıçaqla naxış vurmağı, yemək hazırlamağı öyrətdiyi halda, düzgün təhsildən uzaqda olanlar o bıçağı mənfi niyyətlər üçün istifadə edirlər. Müasir dövrdə İT eyni mahiyyəti təşkil edir. İT imkanları ilə insanlara onların işlərini asanlaşdıran möcüzələr yaratmaq əvəzinə, onu mənfi istiqamətdə istifadə etmək istəyən xəbis ruhlu insanlar cəmiyyətdə az deyil. Onun üçün biz öz ehtiyatlarımızı heç vaxt əldən verməməliyik.

Xakerlərin müxtəlif növ hücumları və virus növləri mövcuddur. Bu məqalədə zərərvericilərin birindən bəhs edəcəyik. Adı: Ransomware (RansomSoftware - Fidyə proqram təminatı).

Ransomware kibercinayətkarlar tərəfindən pis məqsədlər üçün istifadə olunan proqram təminatıdır. Ransomware kompüterə daxil olub, onu yoluxdurduqda məlumatları şifrələyir və istifadəçinin ona girişini məhdudlaşdırır. Məlumatları şifrədən azad etmək üçün ödəniş tələb edir. Ödəniş gecikdirildikcə şifrəni bir az da çətinləşdirərək, daha çox ödəniş tələb edə bilər. Ödəniş olduqda belə, onu təqib etmək və hansı istiqamətə ödəniş edildiyini tapmaq çətindir. Bilmədən qanunla qadağan olunan mənbələrə ödəniş olduğu halda, belə şifrələnən məlumatların deşifrə olaraq geri təqdim olunacağı şübhəlidir. Heç bir qarşılıqlı etimaddan söhbət getmədiyi üçün xaker etimadınızı qazanmaq məqsədilə bir qisim faylın şifrəsini açа bilər və yerdə qalanını açmağa məbləğin tamamını istəyə bilər. İstənilən məbləğ tam ödənsə belə, məlumatlarınızı geri əldə etmək üçün lazım olan şifrə geri verilməyə bilər.

Məlumatlarınızı şifrələyərkən onun uzantısı da daxil olmaqla hər şeyi şifrələyə bilərlər. Şifrələmək üçün, inkişaf etmiş şifrələmə alqoritmlərindən istifadə olunur. Məsələn: AES256 tipli şifrələmə alqoritmindən çox istifadə edirlər. AES256 şifrələmə alqoritmini "Qaba Qüvvət (Brute Force)" ilə də sındırmaq, demək olar, mümkün deyil. Bu şifrələmənin tapılması və həlli super kompüterlərlə belə yüz il çəkə biləcək



bir prosesdir.

Ransomware (Fidyə) proqram təminatlarının növləri və onların iş prinsipləri mövcuddur. Hər birinin özünəməxsus istiqaməti vardır. İnternetdə axtardıqda tapa biləcəyiniz bir çox məlumatları da konspektləşdirərək, bunları qeyd etmək yerinə düşərdi:

1. **Locker Ransomware** - bu növ zərərli proqram kompüterin əsas funksiyalarını bloklamaq üçün nəzərdə tutulub. İstifadəçiyə yalnız fidyə tələbi haqqında məlumatı görəcəyi və ödəyə biləcəyi pəncərə ilə əlaqə saxlamağa icazə verilir.
2. **Şifrələnmiş Ransomware** - bu proqram təminatının məqsədi əsas kompüter əməliyyatlarına müdaxilə etmədən sənədlər, şəkillər və videolar kimi vacib məlumatları şifrələməkdir. İstifadəçilər öz fayllarını görsələr belə, onlara daxil ola bilmirlər. Şifrə tərtibatçıları "Göstərilən tarixə qədər fidyəni ödəməsəniz, bütün fayllarınız silinəcək" kimi mesajlar göstərərək, vaxt sayğacını ekrana çıxarırlar, fidyə tələb edirlər. Çox vaxt hadisə istifadəçilərin fayllarını bərpa etmək üçün fidyə ödəməsi ilə başa çatır.
3. **Locky Ransomware** - e-poçt vasitəsilə kompüterlərinə ransomware quraşdırır. Bu günə qədər Locky 160-dan çox fayl növünü şifrələyib, yoluxmuş qoşmaları olan saxta e-poçtlar vasitəsilə yayılıb.
4. WannaCry Ransomware - WannaCry ilk dəfə 2017-ci ildə tətbiq edilən və 150-dən çox ölkəyə yayılan bir ransomware növüdür. Yazılan məlumatlara görə NSA (National Security Agency) tərəfindən yaradılmış və Windows zəifliyindən istifadə edərək, kompüterləri bloklamaq məqsədi daşıyırdı. Ancaq "Shadow Brokers" haker qrupuna sızdırılmış bu proqram mənfi məqsədlərlə istifadə olundu. WannaCry bu günə qədər dünya üzrə 230.000 kompüterə təsir edib. Böyük Britaniyadakı dövlət xəstəxanalarının üçdə birinə təsir edən proqram təminatı təxminən 92 milyon funt sterlinq dəyərində zərər vurmuşdur. İstifadəçilərin kompüterləri kilidləndi və fidyənin Bitcoin ilə ödənilməsi tələb edildi. Dünyada təxminən 4 milyard dollar dəyərində maliyyə itkisinə səbəb olub.
5. **Jigsaw Ransomware** - 2016-cı ildə istifadəyə verilən bu ransomware proqramı adını "Saw" film seriyasından almışdır. Zərərçəkmiş istifadəçilərin fidyə ödəmədiyi hər saat üçün kompüterlərindən faylları silinir.
6. **CryptoLocker Ransomware** - ilk dəfə 2007-ci ildə ortaya çıxan və yoluxmuş e-poçt əlavələri ilə yayılan bu fidyə proqramı quraşdırıldığı kompüterlərdə mühüm məlumatları aşkarlayır və şifrələyir. Təxminən 500.000 kompüter bu tip hücumdan təsirləndi. Daha sonra hüquq-mühafizə və təhlükəsizlik şirkətlərinin müdaxiləsi ilə şəbəkə üzərindən istifadəçilərin məlumatlarını açmaq üçün açarları əldə edə biləcəkləri onlayn portala giriş əldə etdilər. Beləliklə, məlumatlar cinayətkarlara ödəniş edilmədən bərpa edildi.
7. **Petya Ransomware** - bu, 2016-cı ildə ortaya çıxan, daha sonra 2017-ci ildə GoldenEye adı ilə təkrarlanan ransomware hücumudur. Bu proqram zərərçəkmiş istifadəçinin əsas fayl cədvəlini (MFT) şifrələyir və diskdəki fayllara daxil olmağın qarşısını alır. Əsasən də HR (Human Resource - İnsan Qaynaqları) link vasitəsi ilə CV göndərir. İstifadəçi linkə daxil olduqda virus işə düşür və bütün şəbəkədə olan kompüterlərə yayılır, onları bloklayır və şirkətdən ödəniş tələb edirdi.
8. **GoldenEye Ransomware** - GoldenEye adı altında yenidən peyda olan versiyasıdır. Bu formada o, bütün dünyaya yayıldı və Rusiyanın əsas neft istehsalçıları və müxtəlif banklar da daxil olmaqla 2000-dən çox insana təsir etdi. WannaCry-ın "ölümcül qardaşı" kimi tanınan GoldenEye nəhayət, Çernobıl Atom Elektrik Stansiyasının işçilərinin Windows kompüterlərini bağlayaraq, onları radiasiya səviyyəsini əl ilə idarə etməyə məcbur edərək, təhlükəli səviyyəyə çatdı.
9. **GrandCrab Ransomware** – 2018-ci ildə ortaya çıxan bu növ istifadəçinin kontentlərini araşdırır. İstifadəçi qeyri-etik kontentə daxil olduqda, onun kamerasını aktivləşdirib, foto və video çəkir. Sonra isə fidyə tələb edir. Əks halda çəkdikləri videoları və istifadəçinin daxil olduğu kontentləri paylaşacaqlarını bildirirlər.

Bəs bu tipli zərərvericilərdən necə uzaq qalmaq olar?

1. Mənşəyi məlum olmayan linklərə heç vaxt daxil olmayın;
2. Etibarsız mənbədən şəxsi məlumatlarınızı tələb edən zəng, mətn mesajı və ya e-poçt aldığınız zaman cavab verməyin;
3. Ransomware e-poçt qoşmaları vasitəsilə cihazınıza daxil ola bilər. Şübhəli görünən qoşma faylları açmayın. E-poçtun etibarlı olduğundan əmin olmaq üçün göndərənin adına və ünvanına diqqət yetirin və onun düzgünlüyünü yoxlayın;
4. Makroları aktiv etməyin. Makro proqram təminatının aktivləşməsini tələb edən qoşmaları heç vaxt açmayın. Faylda virus varsa, bu faylı açsanız, zərərli makro işlətməklə kompüterinizi yoluxdura bilərsiniz;
5. Mənşəyi bilinməyən və tam etimad etdiyiniz heç bir yaddaş qurğusunu (USB, External HDD, SSD) kompüterinizə daxil etməyin;
6. Antivirus və əməliyyat sisteminizi daim yeniləyin;
7. Bilinməyən VPN xidmətlərindən istifadə etməyin;
8. Hər zaman məlumatlarınızın ehtiyat nüsxələrini ayrıca saxlayın;
9. Etibarlı olmayan mənbələrdən fayl endirməyin;
10. Administrator rejimindən istifadəni minimallaşdırın.

Əgər yoluxma baş veribsə, hansı qurtulma yolları movcuddur?

Ransomware növündən və verdiyi ziyanlardan daha çox bəhs etmək mümkündür. Marağında olanlar internetdə kiçik bir araşdırma etsə, Ransomware-in vurduğu ziyanın həcminin nə qədər böyük olduğunu da açıq-aydın görə bilərlər. Ransomware-in bütün növlərinə aid olmasa da, bəzi növlərinin verdiyi ziyandan qurtulmaq üçün antivirus şirkətlərinin həlləri mövcuddur. Aşağıda göstərilən linklər vasitəsi ilə yoluxan məlumatların yoluxma tipindən asılı olaraq, məlumatlarınızı qurtara bilərsiniz.

1. www.nomoreransomware.org
2. https://noransom.kaspersky.com
3. https://success.trendmicro.com
4. https://www.avg.com
5. https://www.emsisoft.com

Kompüterlə davranışda ən azı həyatda davranıldığı kimi davranmaq lazımdır. Necə ki, özümüzü, malımızı, minik vasitəmizi qorumaq üçün sığortalayırıq və ya ziyanlı işlərdən kənarda qalmağa çalışırıqsa, virtual aləmdə də diqqətli seçimlər, davranışlar etməliyik və daim bu sahədə məlumatlı olmağa çalışmalıyıq. Müvafiq İT mühəndislərindən məsləhətlər alaraq, kiber gigiyenamıza diqqət göstərməliyik. Diqqətli olmalıyıq ki, məlumatlarımız girov götürülməsin. Fidyə ödəyəcək şəxsə çevrilməyək.



Bəhruz Əliyev,
İnformasiya Texnologiyaları üzrə mühəndis-ekspert, tədqiqatçı

Bolqarıstan Aİ-nin "yaşıl" enerji tədarükü layihəsinə qoşulmağı planlaşdırır

"Azərbaycan bərpa olunan enerji sahəsində böyük potensiala malikdir və bu potensial nəinki daxili istehsal üçün, həm də ixrac üçün kifayətdir". Bunu Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov bazar ertəsi jurnalistlərə deyib.

"Azərbaycan Cənub Qaz Dəhlizi ilə yanaşı, "yaşıl" enerjinin nəqli üçün dəhlizlər yaradır. Belə ki, məsələn ötən ilin dekabrında Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla Qara dənizin dibi ilə Xəzər dənizindən Avropaya müvafiq dəhlizin yaradılması üzrə razılaşma əldə edib. Bolqarıstan tərəfi də bu layihədə iştirakda maraqlı olduğunu bildirib və yaxın zamanda Bolqarıstanın rəsmi olaraq bu layihəyə qoşulacağını gözləyirik", - o deyib.



E.Soltanov qeyd edib ki, Avropa və onun maliyyə institutları bu layihələri müsbət qarşılayır və onları maliyyələşdirməyə hazırdırlar.

Ödəniş kartlarının sayı artıb



Bank və "Azərpoçt" MMC sistemləri üzrə 2023-cü il aprel ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 219 min ədəd artaraq 14 milyon 465 min ədəd təşkil edib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 17.5% artıb. Qeyd edək ki, ödəniş kartlarında artım debet kartları üzrə 16.1%, kredit kartları üzrə 27.2% təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nəzərən əməkhaqqı kartlarının sayı 105 min, kredit kartları 417 min, digər kartlar isə 1.6 mln. ədəd artmışdır. Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərmişdir. Belə ki, ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.9 dəfə artmışdır. 2023-ci ilin aprel ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 3202 mln. manat təşkil etmişdir. Həyata keçirilən nağdsız ödənişlərin 2535 mln. manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 663 mln. manatı POS-terminallar, 4 mln. manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilmişdir. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 51.4%-ni təşkil edib.

İşğaldan azad olunmuş ərazilər üzrə investisiya kataloqu hazırlanıb

"Azərbaycanın işğaldan azad olunmuş əraziləri üzrə investisiya kataloqu hazırlanacaq". Bunu Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) rəhbəri Yusif Abdullayev Azərbaycan-Litva biznes forumunun kuluarlarında deyib. Onun sözlərinə görə, kataloq artıq Litva tərəfindən baxılması və tanışlıq üçün göndərilib. *"Kataloqda şərab zavodunun, su elektrik stansiyalarının və s. tikintisi üzrə layihələr var. Hesab edirəm ki, bu cür forumların keçirilməsi ortaq təmas və əməkdaşlıq nöqtələri tapmağa imkan verəcək"*, - o deyib.

"Bu dəqiqə Avropanın Azərbaycan qazına ehtiyacı var"

"Bu dəqiqə Avropanın Azərbaycan qazına ehtiyacı var. Keçmişdə Azərbaycanın yerini bilməyənlər bu gün Bakıya tez-tez gələrək "bizə qaz verin" deməyə başladılar".

Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. Onun sözlərinə görə, keçmişdə Azərbaycanın üzünə baxmayanlar bu gün "Azərbaycan çox yaxşı ölkə, İlham Əliyev də yaxşı liderdir" deməyə başlayıblar: "Amma bu, mənfəət dünyasıdır. Bizim üçün önəmli olan Türkiyə və Azərbaycan xalqının rifahı üçün nə addımlar ata biləcəyik deyə düşüncəsində olmaqdır. Ona görə TANAP boru xəttinin həcmini artırmaq lazımdır. Bu gün tək özümüz üçün deyil, Avropa da başda olmaqla dünyanın ehtiyacını qarşılamaq üçün işbirliyi edirik".

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda inşa olunan ilk gəmi istismara verilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda (ZGTTZ) inşa olunan ilk yedək gəmisi istismara verilib. Trend xəbər verir ki, Gəmi Xəzər Dəniz Neft Donanmasının balansına qəbul edilib.

"ASCO 1" adlı gəminin uzunluğu 26, eni 6,7, bortunun hündürlüyü 3, suya oturumu 1,8 metr, dedveyti 14 tondur. 6 nəfərlik heyətlə idarə olunan gəmi 9 uzellə hərəkət edəcək. Yedək gəmisi göyərtəsində 3 tonadək yük daşıya biləcək.



Gəminin layihələndirilməsini ASCO-nun Xəzər Dəniz Layihə Elmi Tədqiqat İnstitutunun ("Xəzərdənizlayihə ETİ") əməkdaşları yerinə yetiriblər. Xatırladaq ki, ZGTTZ-də geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndisliyi xidmətləri ilə yanaşı, müvafiq sertifikatlaşma əsasında 2017-ci ildən gəmilərin tikintisi də həyata keçirilir. Hazırda Zavodda daha 5 ədəd eyni tipli gəminin inşası davam edir. Bu gəmilərin mərhələli şəkildə istismara verilməsi planlaşdırılır.

Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları artıb

2023-ci il may ayının 1-nə banklar vasitəsi ilə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 20,379.6 mln. manat təşkil edib. Trend Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu aprel ayının 1-nə olan göstərici ilə müqayisədə 1.7% çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 14.2% və ya 2 mlrd. 539.2 mln. manat artıb. Belə ki, 2022-ci ilin may ayının 1-nə kredit qoyuluşlarının həcmi 17,840.4 mln. manat təşkil edib.



AZƏRBAYCANDA TURİZM SƏNAYESİ: MÜASİR VƏZİYYƏTİ, PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

(əvvəli ötən sayımızda)

Respublika ərazisində fəaliyyət göstərən ***sanatoriya-kurort müəssisələrinin*** **və onların sayında olan uşaq sanatoriyalarının sayına nəzər salsaq**, bu göstəricilərin müvafiq olaraq 32 və 12-yə çatdığını cədvəl 1-dən əyani görmək mümkündür. Məlumatların araşdırılması deməyə əsas verir ki, sanatoriyalarda çarpayıların sayında ötən hesabat ilində azalma baş versə belə, ümumi say əvvəlki illərlə müqayisədə artaraq 32-yə çatmışdır. Təbii ki, ölkəyə müalicə almaq və turist kimi gəzməyə gələnlərin sayının çoxalması göstərilən sanatoriya-kurort müəssisələrində çarpayıların sayının artırılmasından və bu təşkilatların göstərdiyi xidmətlərin keyfiyyətinin yüksəldilməsindən birbaşa asılı olacaqdır.

Ölkəmizdə turizm sənayesinin sürətli inkişafında önəmli rol oynayan amillərdən biri də ***otelçilik fəaliyyətidir***. Başqa **sözlə,** otel və mehmanxana tipli obyektlərin sayı, bu məkanlarda göstərilən xidmətlərin keyfiyyəti və beynəlxalq standartlara cavab verməsi gələn turistlərin məmnunluğuna səbəb olur. Son 10 ildə respublikada mehmanxana (otel) və mehmanxana tipli obyeklərin sayının araşdırılması bu qəbildən olan təsərrüfat vahidlərinin artıma meyilli olduğunu göstərir (cədvəl 2).

Otelçilikdə ümumi iqtisadi göstəricilərin müqayisəsindən müəyyən etmək mümkündür ki, 2021-ci ildə burada yerləşdirilən ölkə vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan **şəxslərin miqdarında da çoxalma** vardır. Bu amilə görə turizm sənayesi üzrə inkişaf mərhələsində tanınmış beynəlxalq şirkətlərin ölkəmizə marağı daha da artmaqdadır. AR-də sahibkarlıq fəaliyyətinə yaradılmış əlverişli şərait, eləcə də iş adamlarına **əlverişli şəraitin yaradılması və dövlətimizin dəstəyi otelçiliyə məş**hur firmaların diqqətini yüksəltdi. Hazırda **dünyanın 8 şöhrətlənmiş brendi artıq Bakı şəhərindədir. Bu gün** "Mariott"(01.04.21), "Four Seasons"(03.09.21), "Faimont" (24.06.13), "Kempinski" (10.05.11), "Jumeirah" (28.12.11), "Sheraton" (2014), "Hyatt" (19.05.95), "Hilton" (03.10.11) kimi otellərin uğurlu fəaliyyəti ölkəmizdə davam etməkdədir. Özlərinin cəzbedici interyeri və gözəlliyi ilə seçilən bu otellər 5 ulduzlu olmaqla rahatlığı və yüksək keyfiyyətli xidmətlərin göstərilməsilə turistləri cəlb edir, onların sayının artmasına müsbət təsir göstərirlər. Ölkəmizin dilbər guşələri hesab edilən Qəbələdə, Şəkidə, Qubada, Şimal-Qərb bölgəsində, Cənub zonasında, xüsusilə Lerikdə beynəlxalq standartlara cavab verən otellərin istifadəyə verilməsi buraya turistlərin gəlməsində böyük rol oynayır. Ölkə başçısının təşəbbüsü və diqqəti nəticəsində Şahdağ Turizm Mərkəzinin 2012-ci ildə yaradılaraq fəaliyyətə başlaması turizm sənayesinin mövsümilik anlamına son qoydu. Ölçüsu 128 ha olan bu qış turizm bazasına turistlərin ilin bütün fəsillərində məmnunluqla axını onun müasirliyinin və beynəlxalq standartlara cavab verməsinin göstəricisidir. Azərbaycanın Şahdağ yay-qış turizm kompleksi özlüyündə 5 oteli və ailəvi otel-evləri cəmləşdirməklə

turagent və turoperatorlardır. AR-in "Turizm haqqında" Qanunvericiliyə uyğun olaraq turagentlər turizm xidmətlərinin və ya turoperatorlar tərəfindən hazırlanan turizm zərfinin satışını həyata keçirməkdə vasitəçilik edən fiziki və ya hüquqi şəxslərdir. Ölkəmizdə 2021-ci ilin məlumatlarına istinadən turagent və turoperatorların rəsmi sayı 2-si dövlət və 148-i qeyri-dövlət mülkiyyəti olmaqla 150-yə çatır. Özəl turagent qurumlarından 134-ü xüsusi olmaqla 11-i xarici və 3-ü birgə müəssisələrdir. Baxılan dövrdə Azərbaycana turagent və turoperatorların vasitəsilə qəbul edilmiş və göndərilmiş turistlərin sayı 16324-ə çatır. Ondan əvvəlki 2019 və 2020-ci hesabat illərində bu göstərici müvafiq olaraq 442 və 300 vahid təşkil etmişdir.


AR Sərhəd Xidmətinin məlumatına istinadən ötən ildə ölkəmizə 178 ölkədən 1602,6 min əcnəbi və vətəndaşlığı olmayan şəxslər **gəlmişdir. Gələn turistlərin** sayı əvvəlki illə müqayisədə 2 dəfə çox olmuşdur. Respublikamızın Dövlət Gömrük Komitəsinin məlumatlarına istinadən son dövrlərdə AR-ə gələn turistlərin dinamikliyinin təhlili onu göstərir ki, ölkəmizə gələnlərin sayı artıma təmayüllüdür (cədvəl 3).

Məlumatlara nəzər yetirsək, bütün ölkələr, eləcə də regionlar üzrə ölkəmizə gələn turistlərin sayında kəskin azalma qeydə alınmışdır. Yaranmış belə vəziyyət qoyulan məhdudiyyətlər və qlobal epidemioloji vəziyyətin pisləşməsi ilə izah oluna bilər. Gələn turistlərin 2022-ci ildə regionlar üzrə təhlilinə əsasən Azərbaycan Respublikasına ən çox Rusiya Federasiyası (RF), ildə 72823 nəfərə çatmışdır. Ötən ildə gələn turistlərin regionlara görə araşdırılması onu göstərir ki, BƏƏ, İraq, İsrail, Oman, Qətər, Misir, İordaniya və digər Yaxın Şərq ölkələrindən gələnlərin sayı 228294 nəfər təşkil etmişdir. Gələn turistlərin regional təhlilinə əsaslansaq, 2-ci və 3-cü yerlərdə müvafiq olaraq Şərqi Avropa və Cənubi Asiya ölkələrinin yer aldığını görərik. Şərqi Avropanın Ukrayna (27746), Polşa (4125), Belarus (18562), Moldova (2950), Macarıstan (1510), Çex Respublikası (1142), Litva (1142) və s. ölkələrindən 2022-ci ildə gələn turistlərin ümumi sayı 66246-ya çatmışdır. Regional təhlildə 3-cü sırada yer tutan Cənubi Asiyanın Hindistan (60731), Pakistan (51700), Şri-Lanka (1940), Nepal (2117), Banqladeş (328) və Maldiv (78) kimi ölkələrindən Azərbaycana ötən ildə cəmi 118288 nəfər turist gəlmişdir. Ölkəmizə gələn turistlərin faiz (%) nisbətinə gəldikdə isə ilk üçlüyü 27,9%-lə RF, 19,5%-lə Türkiyə və 10,6%-lə İran bölüşdürür. Qeyd edilən dövrdə ölkəmizə gələn turistlərin 74,8%-ini qadınlar və 25,2%-ini kişilər təşkil etmişdir.

Cədvəl 3

***Respublikaya* gələn turistlərin dinamikası**

№	Ölkələr	2017	2018	2019	2020	2021	2022
1	Rusiya Federasiyası	853082	878391	932198	225214	257959	446831
2	Türkiyə Cümhuriyyəti	301553	291259	305404	160513	197472	311880
3	**İran İslam Respublikası**	362597	240483	255571	72796	124877	170533
4	Səudiyyə Ərəbistanı	33278	72935	106994	11945	8826	96231
5	Gürcüstan	537710	610124	725174	184253	62512	82225
6	Hindistan	14173	39013	65058	12769	5695	60731
7	Pakistan	17558	41268	46586	7774	2940	51700
8	BƏƏ	102360	93835	68289	7951	17275	41085
9	Qazaxıstan	36115	37679	47495	8497	6916	30350
10	**Özbəkistan**	18722	18288	23471	5282	4206	26309
11	Digər ölkələr	414843	521602	591664	98766	213774	284725
12	Cəmi	2691991	2844877	3167904	795760	790062	1602600



Diaqram 1. Respublikamıza 2022-ci ildə gələn turistlərin ölkələr üzrə ilk onluğu (min nəfərlə)

(davamı gələn sayımızda)

Əmirov İmran, Sumqayıt Dövlət Universiteti, Biznesin təşkili və menecment kafedrası, baş müəllim

Cədvəl 2

AR-də son 10 ildə otel və mehmanxana tipli obyektlərin iqtisadi göstəriciləri

№	Göstəricilərin adları	2010	2015	2019	2020	2021
1	Otel və mehmanxana tipli obyektlər	499	536	670	684	712
2	Birdəfəlik tutum, yer	30793	37278	49980	50687	53049
3	Nömrələrin sayı	14158	17958	23865	24195	25445
4	Yerləşdirilən şəxslər, nəfərlə	438479	838145	1919765	668813	1172123
5	O cümlədən: ölkə vətəndaşları	226123	342497	603026	401430	900560
6	Əcnəbilər və vətəndaş-lığı olmayanlar	212356	495648	1316739	267383	271563
7	Gecələmələrin sayı, adam gecə	1358286	1644056	3345285	999586	1788716

ümumi göstəricilərin 2019-cu ildən 2022-ci illərədək müşahidə edilən azalmaları isə epidemioloji vəziyyətin (Covid-19) qlobal səviyyədə gərginləşməsi və sərhədlərdə qoyulan rəsmi məhdudiyyətlərlə izah edilə bilər. Şübhəsiz ki, dövlətimizin sərhədlərindən keçidin quru yollarının açılması gələn turistlərin sayının da yaxın gələcəkdə çoxalmasına səbəb olacaqdır.

Çağdaş Azərbaycanın indiki fəaliyyətini təkmilləşdirərək, hələ uzun müddət turizm sənayemizin inkişafına, eləcə də ölkə büdcəsinə yeni dividendlər gətirəcək. Yaxın gələcəkdə bu dağ-xizək kurortunda çoxsaylı kotteclərin, akvaparkın və s. turizm obyektlərinin tikintisi nəzərdə tutulur.

Ölkəmizə gələn turistlərin sayının artmasına əhəmiyyətli dərəcədə təsir göstərən mühüm amillərdən biri də respublika ərazisində fəaliyyət göstərən Türkiyə və İran kimi dövlətlərdən gələnlərin sayında çoxalma müşahidə olunmuşdur. Ötən il respublikamıza gələn turistlərin ilk onluğu 1 saylı diaqramda göstərilən ardıcıllığa malikdir (diaqram 1).

Mərkəzi Asiyadan gələn turistlərin sayına görə Qazaxıstan və Özbəkistan kimi ölkələrin diaqramda 9 və 10-cu yerləri bölüşdürməsinə baxmayaraq, adı çəkilən regiondan turist qismində gələnlərin ümumi sayı 2022-ci

Azərbaycan qeyri-neft ixracını 88%-ə çatdırmağı planlaşdırır



"Azərbaycanın aparıcı ali təhsil ocaqlarında dayanıqlı inkişaf məqsədlərinin (DİM) inkişafı üzrə layihənin reallaşdırılması bu sahədə yeni kadrların formalaşmasına imkan yaradır".

Trend xəbər verir ki, bunu Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin rəisi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov "Dayanıqlı İnkişaf Məqsədləri və Gənclər üçün Maliyyə Akademiyası" layihəsinin bağlanış mərasimində deyib.

Onun sözlərinə görə, BMT tərəfindən Azərbaycanın DİM-lərinin reallaşdırılması həmçinin 2015-ci ildə qarşıya qoyulmuş hədəflərə nail olmağa imkan verəcək.

"Azərbaycan 2015-ci ildə üzərinə DİM-lərin 2030-cu ilədək icrası ilə bağlı öhdəlik götürüb. Bu, iqtisadiyyat, təhsil, ətraf mühitin mühafizəsi, insan kapitalının gücləndirilməsi, ölkənin yaşıl texnologiyalar habına çevrilməsi üzrə kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur", - o deyib.

H.Hüseynov həmçinin vurğulayıb ki, DİM çərçivəsində qeyri-neft sektorunun ixrac payının 88 faizə çatdırılması planlaşdırılır.



"Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı" MMC-nin 31 dekabr 2022-ci il tarixinə MALİYYƏ HESABATI

"Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatları "Moore İnternational Limited" Beynəlxalq audit şirkətinin müstəqil üzvü olan "Moore Stephens Azərbaycan" MMC tərəfindən audit edilmiş və bu hesabatların 31 Dekabr 2022-ci il tarixinə Təşkilatın maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirdiyi barədə rəy verilmişdir.

31.12.2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat

	2022	2021
Aktivlər		
Pul vəsaitləri və onların ekvivalentləri	604,171	401,727
Müştərilərə verilmiş kreditlər	859,851	1,194,242
Əsas vəsaitlər	71,759	96,162
Qeyri-maddi aktivlər	8,753	9,956
Təxirə salınmış vergi aktivləri	23,181	19,971
Avans olaraq ödənilmiş mənfəət vergisi	14,862	9,842
Digər aktivlər	2,703	2,235
Cəmi aktivlər	**1,585,280**	**1,734,135**
Öhdəliklər		
Banklar və digər maliyyə institutlarına olan borclar	18,206	27,309
Digər öhdəliklər	8,415	6,136
Cəmi öhdəliklər	**26,621**	**33,445**
Kapital		
Nizamnamə kapitalı	1,650,000	1,700,000
Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərər)	(91,341)	690
Cəmi kapital	**1,558,659**	**1,700,690**
Cəmi kapital və öhdəliklər	**1,585,280**	**1,734,135**

31 dekabr 2022-ci il tarixində başa çatmiş il üzrə məcmu gəlir haqqında hesabat

	2022	2021
Faiz gəliri	177,793	297,343
Faiz xərcləri	(28)	(144)
Xalis faiz gəlirləri	**177,765**	**297,199**
Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat bərpası/ (xərci)	(23,070)	37,134
Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri	**154,695**	**334,333**
Haqq və komissiya xərcləri	-	(91)
Xalis digər gəlirlər	5,730	1,143
Xalis qeyri-faiz gəlirləri	**5,730**	**1,052**
Əməliyyat gəliri	**160,425**	**335,385**
İnzibati və digər əməliyyat xərcləri	(175,334)	(209,240)
Vergidən əvvəlki mənfəət	**(14,909)**	**126,145**
Mənfəət vergisi	2,878	(25,336)
İl üzrə xalis mənfəət	**(12,031)**	**100,809**

31 dekabr 2022-ci il tarixində başa çatmiş il üzrə kapitalda dəyişikliklər haqqında hesabat

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərər)	Cəmi
1 Yanvar 2021-ci il tarixinə qalıq	**1,500,000**	**13,481**	**1,513,481**
Nizamnamə kapitalında artım	200,000	-	200,000
İl üzrə xalis mənfəət	-	100,809	100,809
Elan edilmiş dividendlər	-	(113,600)	(113,600)
31 Dekabr 2021-ci il tarixinə qalıq	**1,700,000**	**690**	**1,700,690**
Nizamnamə kapitalında azalma	(50,000)	-	(50,000)
İl üzrə xalis mənfəət	-	(12,031)	(12,031)
Elan edilmiş dividendlər	-	(80,000)	(80,000)
31 Dekabr 2022-ci il tarixinə qalıq	**1,650,000**	**(91,341)**	**1,558,659**

31 dekabr 2022-ci il tarixində başa çatmiş il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat

	2022	2021
Vergidən əvvəlki mənfəət	(14,909)	126,145
Düzəlişlər:		
Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası	23,070	(37,134)
Əsas vəsaitlərin köhnəlməsi	23,066	17,683
Qeyri-maddi aktivlərin amortizasiyası	2,729	2,379
Əsas vəsaitlərin silinməsindən əldə olunan (gəlir)/zərər	(4,983)	(519)
Xalis faiz gəlirləri	(177,765)	(297,199)
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti	**(148,792)**	**(188,645)**
Ödənilmiş faizlər	(28)	(411)
Alınmış faizlər	178,031	311,791
Müştərilərə verilmiş kreditlər və avanslar	311,083	308,432
Digər aktivlərdə dəyişiklik	(468)	863
Digər öhdəliklərdə dəyişiklik	2,279	1,616
Əməliyyat fəaliyyətindən yaranan vergidən əvvəlki pul vəsaitlərinin hərəkəti	**342,105**	**433,646**
Ödənilmiş mənfəət vergisi	(5,352)	(39,831)
Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri	**336,753**	**393,815**
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		
Əsas vəsaitlərin satışından əldə olunan gəlir	6,500	8,300
Əsas vəsaitlərin alınması	(180)	(108,609)
Qeyri-maddi aktivlərin alınması	(1,526)	(1,371)
İnvestisiya fəaliyyətindən yaranan xalis pul vəsaitlərinin hərəkəti	**4,794**	**(101,680)**
Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		
Dividend ödənişi	(80,000)	(113,600)
Nizamnamə kapitalında artım	-	200,000
Nizamnamə kapitalında azalma	(50,000)	
Banklar və digər maliyyə institutlarına ödənilən vəsaitlər	(9,103)	(61,953)
Maliyyə fəaliyyətindən yaranan xalis pul vəsaitlərinin hərəkəti	**(139,103)**	**24,447**
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/ artım	**202,444**	**316,582**
Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə	**401,727**	**85,145**
Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna	**604,171**	**401,727**

«PREMİUM BANK» ASC-nin 31 dekabr 2022-ci il tarixinə MALİYYƏ HESABATI

	Qeydlər	31 dekabr 2022-ci il	31 dekabr 2021-ci il
AKTİVLƏR:			
Nağd vəsaitlər və Mərkəzi Bankda qalıqlar	6	85,912	134,091
Digər banklardakı qalıqlar	7	165,351	109,118
Müştərilərə verilmiş kreditlər və avanslar	8, 23	411,779	486,879
Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər	9, 23	5,632	6,565
Qeyri-maddi aktivlər	9	1,812	1,660
Təxirə salınmış mənfəət vergisi aktivi	22	2,085	899
Digər aktivlər	10	7,378	5,301
Cəmi aktivlər		**679,949**	**744,513**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL			
ÖHDƏLİKLƏR:			
Banklardan və maliyyə təşkilatlarından alınmış kreditlər və depozitlər	11, 23	42,633	37,520
Müştərilərdən alınmış depozitlər	12, 23	460,799	533,528
Digər öhdəliklər	13, 23	11,796	10,796
Cəmi öhdəliklər		**515,228**	**581,844**
KAPİTAL:			
Nizamnamə kapitalı	14	154,601	154,601
Bölüşdürülməmiş mənfəət		10,120	8,068
Cəmi kapital		**164,721**	**162,669**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**679,949**	**744,513**

	Qeydlər	31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə
Faiz gəlirləri	15, 23	30,679	32,298
Faiz xərcləri	15, 23	(10,574)	(15,262)
Xalis faiz gəliri	15, 23	**20,105**	**17,036**
Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası	21	(1,777)	6,466
Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpasından sonra xalis faiz gəliri		**18,328**	**23,502**
Haqq və komissiya gəliri	17	14,886	11,962
Haqq və komissiya xərci	18	(7,171)	(9,630)
Xarici valyuta əməliyyatları üzrə xalis gəlir	16	3,118	2,725
Əməliyyat gəliri		**29,161**	**28,559**
Ümumi və inzibati xərclər	20, 23	(18,071)	(21,487)
Köhnəlmə və amortizasiya xərci	19, 23	(2,240)	(2,305)
Digər gəlir, xalis		82	8
Mənfəət vergisindən əvvəl mənfəət		**8,932**	**4,775**
Mənfəət vergisi xərci	22	(1,990)	(1,597)
İl üzrə xalis mənfəət		**6,942**	**3,178**
İl üzrə digər məcmu gəlir		-	-
İl üzrə cəmi məcmu gəlir		**6,942**	**3,178**
Bankın sahiblərinə aid olan, əsas və azaldılmış bir səhm üzrə mənfəət (hər səhm üzrə AZN ilə ifadə olunur)	28	**6.91**	**3.17**

İdarə Heyəti tərəfindən:

Mahir Nəzərov
İdarə Heyətinin sədri

10 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Ülvi Novruzov
Baş mühasib

10 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-63-cü səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

«QALA MAŞINQAYIRMA» ASC-nin 31 dekabr 2022-ci il tarixinə MALİYYƏ HESABATI

	Qeyd	31 dekabr 2022-ci il	31 dekabr 2021-ci il
AKTİVLƏR			
Uzunmüddətli aktivlər			
Torpaq, tikili və avadanlıqlar	7	1 313 947	1 529 027
Qeyri-maddi aktivlər	8	-	-
İnvestisiyalar	9	-	-
		1 313 947	*1 529 027*
Qısamüddətli aktivlər			
Ehtiyatlar	10	1 230 744	1 256 823
Qısamüddətli debitor borcları	11	-	18 956
Pul vəsaitləri və onların ekvivalentləri	13	254 648	7 079
Sair qısamüddətli maliyyə aktivləri	14	-	-
Sair qısamüddətli aktivlər	12	2 153	26 501
		1 487 545	*1 309 359*
CƏMİ AKTİVLƏR		**2 801 492**	**2 838 386**
KAPİTAL			
Səhmdar (Nizamnamə) kapitalı	18	239 918	239 918
Kapital ehtiyatları	19	862 366	862 366
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)		1 459 667	1 579 732
CƏMİ KAPİTAL		**2 561 951**	**2 682 016**
ÖHDƏLİKLƏR			
Qısamüddətli öhdəliklər			
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	15	30 077	11 032
Qısamüddətli kreditor borcları	16	45 732	41 984
Sair qısamüddətli öhdəliklər	17	163 732	103 354
		239 541	*156 370*
CƏMİ ÖHDƏLİKLƏR		**239 541**	**156 370**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**2 801 492**	**2 838 386**

31 dekabr 2022-ci il tarixinə *Azərbaycan Manatı ilə*

	Qeyd	2022-ci il	2021-ci il
Əsas əməliyyat gəlirləri	20	1 652 198	1 006 773
Əsas əməliyyat xərcləri	23	(1 433 893)	(943 001)
Əməliyyat mənfəəti (zərəri)		**218 305**	**63 772**
Sair əməliyyat gəlirləri	21	44 815	4 180
Sair əməliyyat xərcləri	25	(148 231)	(20 211)
Fövqəladə gəlirlər	22	-	4 239
Fövqəladə xərclər	24	(211 976)	(15 358)
Vergitutmadan əvvəl mənfəət (zərər)		**(97 087)**	**36 622**
Mənfəət vergisi*	26	(22 978)	(10 396)
Hesabat dövründə xalis mənfəət (zərər)		**(120 065)**	**26 226**
Mənfəətdə iştirak payı:			
Səhmdarların payı		-	26 226
		-	**26 226**

ANR AUDIT

"ANR Audit" MMC
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
office@anraudit.az
www.anraudit.az

MÜSTƏQİL AUDİTORUN HESABATI
"Qala Maşınqayırma" Açıq səhmdar cəmiyyətinin səhmdarlarına

Rəy

Biz "Qala Maşınqayırma" Açıq səhmdar cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

"ANR Audit" MMC-nin direktor-auditoru
Bakı şəhəri, Azərbaycan Respublikası
18 may 2023-cü il

Namiq Abbaslı

"AZİNVEST İNŞAAT" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

(manatla)

Bölümün/maddənin №-si		Hesabın №-si	Qeydlərə istinad	31/12/2021- ci il	31/12/2022-ci il
	AKTİVLƏR				
1	**Uzunmüddətli aktivlər**				
10	Qeyri-maddi aktivlər	101 çıxılsın 102 üstəgəl 103		8,200.00	7,175.00
11	Torpaq, tikili və avadanlıqlar	111 çıxılsın 112 üstəgəl 113		1,009,813.68	1,581,956.57
12	Daşınmaz əmlaka investisiyalar	121 çıxılsın 122			
13	Bioloji aktivlər	131 çıxılsın 132			
14	Təbii sərvətlər	141 çıxılsın 142			
15	İştirak payı metodu ilə uçota alınmış investisiyalar	15X			2,000,337.27
16	Təxirə salınmış vergi aktivləri	16X			
17	Uzunmüddətli debitor borcları	17X			
18	Sair uzunmüddətli maliyyə aktivləri	18X çıxılsın 184			
19	Sair uzunmüddətli aktivlər	19X			
	CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR			**1,018,013.68**	**3,589,468.84**
2	**Qısamüddətli aktivlər**				
20	Ehtiyatlar	20X çıxılsın 208		2,807,750.60	579,739.29
21	Qısamüddətli debitor borcları	21X çıxılsın 218		403,593.15	1,832,221.03
22	Pul vəsaitləri və onların ekvivalentləri	22X		3,203,607.62	4,322,107.31
23	Sair qısamüddətli maliyyə aktivləri	23X çıxılsın 235			
24	Sair qısamüddətli aktivlər	24X		2,235,788.83	2,209,713.40
	CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR			**8,650,740.20**	**8,943,781.03**
	CƏMİ AKTİVLƏR			**9,668,753.88**	**12,533,249.87**
	KAPİTAL VƏ ÖHDƏLİKLƏR				
3	**Kapital**				
30	Ödənilmiş nominal(nizamnamə) kapital	301 çıxılsın 302		2,000.00	2,000.00
31	Emissiya gəliri	31X			
32	Geri alınmış kapital (səhmlər)	32X			
33	Kapital ehtiyatları	33X			
34	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	34X çıxılsın 344		1,558,751.79	2,497,895.36
	CƏMİ KAPİTAL			**1,560,751.79**	**2,499,895.36**
4	**Uzunmüddətli öhdəliklər**				
40	Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	40X			
41	Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	41X			
42	Təxirə salınmış vergi öhdəlikləri	42X			
43	Uzunmüddətli kreditor borcları	43X			
44	Sair uzunmüddətli öhdəliklər	44X			
	CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR			**0.00**	**0.00**
5	**Qısamüddətli öhdəliklər**				
50	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	50X			
51	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər	51X		6,859,811.86	8,031,955.75
52	Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	52X		620,976.98	1,349,750.05
53	Qısamüddətli kreditor borcları	53X		594,100.84	632,338.78
54	Sair qısamüddətli öhdəliklər	54X		33,102.41	19,309.93
	CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR			**8,107,992.09**	**10,033,354.51**
	CƏMİ ÖHDƏLİKLƏR			**8,107,992.09**	**10,033,354.51**
	CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR			**9,668,753.88**	**12,533,249.87**

(manatla)

Göstəricilər	Qeydlərə istinad	2022-ci il
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti		
Hesabat dövründə xalis mənfəət və ya zərər		0.00
Aşağıdakı maddələr üzrə düzəlişlər:		0.00
azlıq təşkil edən mülkiyyətçilərin payı		0.00
fövqəladə gəlirlər və xərclər		0.00
mənfəət vergisi üzrə xərclər		0.00
qeyri-pul maddələri üzrə gəlirlər və xərclər		0.00
investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr		0.00
Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:		
ehtiyatların (artması) azalması		2,228,011.31
əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri artması (azalması)		-1,402,552.45
əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması)		1,925,362.42
Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti		0.00
Ödənilmiş (qaytarılmış) mənfəət vergisi		0.00
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti		**2,750,821.28**
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		
Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları		368,015.68
Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları		0.00
Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları		0.00
Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları		0.00
Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları		0.00
Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları		0.00
Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları		0.00
Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları		0.00
Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları		0.00
Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları		0.00
Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları		0.00
Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları		0.00
İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları		-2,000,337.27
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti		**-1,632,321.59**
Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti		
Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları		0.00
Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları		0.00
Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları		0.00
Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları		0.00
Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları		0.00
Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları		0.00
Maliyyə icarəsi müqavilələrinin şərtlərin ə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları		0.00
Dividentlər və buna oxşar digər ödəmələ şəklində pul vəsaitlərinin xaricolmaları		
Faizlər şəklində rul vəsaitlərinin xaricolmaları		0.00
Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar		0.00
Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar		**0.00**
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti		**0.00**
Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)		**1,118,499.69**

Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti

	31/12/2022
Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği	**3,203,607.62**
İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri	0.00
Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı	**4,322,107.31**

Rəhbər A.Seyidməmmədov

Baş mühasib Ə.Baxışov

(manatla)

Bölümün/maddənin №-si		Hesabın №-si	Qeydlərə istinad	31.12.2021-ci il	31.12.2022-ci il
60	Əsas əməliyyat gəliri	601 çıxılsın 602 çıxılsın 603		16,210,432.62	25,941,458.25
70	Satışın maya dəyəri	701			
	Ümumi Mənfəət			**16,210,432.62**	**25,941,458.25**
61	Sair əməliyyat gəlirləri	611		30,743.79	169,211.99
71	Kommersiya xərcləri	711		5,883,469.41	10,459,858.20
72	İnzibati xərclər	721			
73	Sair əməliyyat xərcləri	731		8,848,835.76	13,316,085.19
62 və 74	Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər)	621 çıxılsın 741			
	Əməliyyat mənfəəti (zərəri)			**1,508,871.24**	**2,334,726.85**
63 və 75	Maliyyə mənfəəti (zərəri)	631 çıxılsın 751			
81	Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay	811			
	Vergiqoyulmadan əvvəl mənfəət (zərər) Keçmiş illərin zərəri				
90	Mənfəət vergisi	901 üstəgəl 902		301,774.25	466,945.37
	Adi fəaliyyətdən mənfəət (zərər)				
64 və 76	Fövqəladə mənfəət (zərər)	641 çıxılsın 761			
80	Hesabat dövründə xalis mənfəət (zərər)	801=Hesablama			
	Bazis hər bir səhmin mənfəəti	Hesablama			
	Qatılmış hər bir səhmin mənfəəti	Hesablama			
	Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər	Son qalıqları çıxılsın ilkin qalıqları			
	Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər	103 və 113 nömrəli hesabların debetləri üzrə dövriyyə			
	İstifadə edilmiş material ehtiyatları	201 nömrəli hesabın krediti üzrə dövriyyə		3,981,711.69	8,093,171.42
	İşçi heyəti üzrə xərclər	533 nömrəli hesabın krediti üzrə dövriyyə		1,573,079.11	1,667,847.73
	Amortizasiya xərcləri	102, 112, 122, 132, 142 nömrəli hesabların kreditləri üzrə dövriyyə		328,678.61	698,839.05
73	Sair əməliyyat xərcləri	731		8,848,835.76	13,316,085.19
	Cəmi əməliyyat xərcləri			**14,732,305.17**	**23,775,943.39**

(manatla)

		Nizamnamə kapitalı	Kapital ehtiyatları	Yenidən qiymətləndirilmə üzrə ehtiyat	Kapitalın cəmi
Əvvəlki dövrün əvvəlinə qalıq		**2,000.00**		**1,981,982.00**	**1,983,982.00**
Yenidən qiymətləndirilmə üzrə daxilolmalar (silinmələr)	25				
Əvvəlki dövr üzrə xalis mənfəət	26			1,159,811.17	**1,159,811.17**
Digər daxilolmalar /(silinmələr)	27			-1,583,031.38	**-1,583,031.38**
Dövlət büdcəsinə köçürmələr					**0.00**
Əvvəlki dövrün sonuna qalıq	**28**	**2,000.00**	**0**	**1,558,761.79**	**1,560,761.79**
Hesabat dövrünün əvvəlinə qalıq		**2,000.00**		**1,558,761.79**	**1,560,761.79**
Yenidən qiymətləndirilmə üzrə daxilolmalar (silinmələr)	25			-928,647.91	**-928,647.91**
Əvvəlki dövr üzrə xalis mənfəət	26			1,867,781.48	**1,867,781.48**
Digər daxilolmalar /(silinmələr)	27				
Dövlət büdcəsinə köçürmələr					
Hesabat dövrünün sonuna qalıq	**28**	**2,000.00**	**0.00**	**2,497,895.36**	**2,499,895.36**

Rəhbər A.Seyidməmmədov

Baş mühasib Ə.Baxışov

International Audit Tax & Consulting LLC
İATC
Baku AZ1131 Azerbaijan Republic
Surakhani Yeni Guneshli seti AB
house 8 apartm 27
Phone: +(994) 50 625 03 75
e-mail: lauditcllc@gmail.com

"İATC" Məhdud Məsuliyyətli Cəmiyyəti
VÖEN: 1905410441
AR Auditorlar Palatası tərəfindən verilmiş 16 yanvar 2023-cü il tarixli AT/261 №-li İcazə

№ 9UPPJtIS1Q **"26" aprel 2023-cü il**

MÜSTƏQİL AUDİTOR HESABATI

Rəy

Mən "AZİNVEST İNŞAAT" Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN 1702336441) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına ədilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsevvür yaradır.

Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində

Qarabağın görkəmli simaları

Cəlal Bərgüşad (1924-1996)

Görkəmli Azərbaycan nasiri Cavadov Cəlal Novruz oğlu (Cəlal Bərgüşad) 1924-cü il iyunun 22-də Azərbaycanın Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdur. Orta təhsilini Qubadlı kəndində fəhlə-gənclər məktəbində almış, II Dünya müharibəsində iştirak etmiş, 1943-cü ildə ağır döyüşlərin birində kantuziya aldığına görə ordudan tərxis edilmişdir. Bundan sonra o, 1943-1946-cı illərdə Qubadlı rayon daxili işlər şöbəsində VAQ müdiri işləmişdir. 1946-cı ildə onun ***"Cənub taydan əsən meh"*** adlı ilk şeiri də Qubadlıda çıxan ***"Avanqard"*** qəzetində dərc edilmişdir. O, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir. 1951-ci ildə ***"Azərbaycan pioneri"*** qəzeti redaksiyasına ədəbi işçi təyin olunmuşdur.



1958-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor vəzifəsində işləmişdir. Onun ssenarisi əsasında ***"Çoban Boran", "Göy göl", "Suren Adamyan", "Torpağın ətri", "Çinar yarpağı"*** televiziya filmləri çəkilmişdir. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Onun ***"Babək"*** əsəri 1984-cü ildə Tehranda farsca, ***"Qaçaq Nəbi"*** 1979-cu ildə İstanbulda türkcə kütləvi tirajla çap olunmuşdur. Yazıçının ***"Sıyrılmış qılınc"*** tarixi romanı məşhur xalq sərkərdəsi Babək Xürrəminin mübarizələrlə dolu həyatına həsr edilmişdir. Romanda Babəkin azadlıq və istiqlaliyyət uğrunda xilafətə qarşı apardığı bir sıra şanlı döyüşlər təsvir olunur.

Müəllifin 1958, 1970, 1988-ci illərdə nəşr edilmiş ***"Bozatın belində" tarixi romanı, "Gələcəyi yaradanlar" oçerklər kitabı, "Şərq çiçəyi", "Təzə gəlin", "Toydan sonra", "Dərilməmiş salxımlar"*** hekayələr kitabı geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Cəlal Bərgüşad xidmətlərinə görə birinci dərəcəli "İkinci Dünya müharibəsi" ordeni (1986) və medallarla təltif edilmişdir.

Görkəmli yazıçı Cəlal Bərgüşad 1996-cı il iyulun 9-da vəfat etmişdir.

Şəfalı əllərin var olsun, Çiçək həkim!

İnsanlar həyata müxtəlif missiyaları yerinə yetirmək üçün gəlir. Elə buna görə də Yer üzündə rəngarəng peşə və sənətlə məşğul olan milyonlarla insan yaşayır. Onların arasında elələri var ki, gecə-gündüz bəşərin sağlamlığının keşiyində dayanır. Bu, həkim peşəsidir. Həkim peşəsi çox müqəddəs və şərəfli peşədir. Nə yaxşı ki, doğma Vətənimizdə həkim peşəsinin böyük məsuliyyətini hiss edən, bu adı layiqincə daşıyan, Hippokrat andına sadiq həkimlərimiz yetəri qədərdir.

Uzağa getməyək, elə post-pandemiya dövründə - bəşəriyyətin başı üzərini dəhşətli virus bəlası alan zaman öz sağlamlığını təhlükə altında qoyub sutkanın 24 saatını iş başında olan həkimlərimiz əsl xalq qəhrəmanına çevrildilər. Digər peşə sahibləri koronavirusa görə evdə işsiz-gücsüz qaldığı halda, həkimlərimiz var-qüvvəsi ilə xəstələrin həyatını xilas etmək üçün gücləndirilmiş iş rejimində çalışırdılar. Etiraf edim ki, öz peşəmi sevdiyimə baxmayaraq, o ağır günlərdə evdə qamaqdan bezdiyimə görə həkim olmadığım üçün acı təəssüf hissi keçirir, fədakar həkimlərimizə, sözün əsl mənasında qibtə edirdim. Həkimlərimizin qəhrəman şücaəti Qarabağ müharibəsində də özünü bir daha göstərdi. 44 günlük Vətən müharibəsində onların əsgərlərimizlə çiyin-çiyinə döyüşməsi və həyatlarını təhlükə altında qoyaraq hər bir yaralıya tibbi yardım göstərməsi əsl qəhrəmanlıq nümunəsi idi.



1971-ci ilin isti yay günləri idi. Yaydan sonra mütləq barlı bir payız gələcəkdi. Avqustun axırında Məmməd kişinin həyatında da dəyişiklik oldu. Həyata qız uşağı gəlmişdi. Məmməd kişi uşağa qoyulan gül adları ilə razılaşmadı və adını Çiçək qoydu. Gül ətir verdiyi kimi, çiçək də bar verir. Çiçək də bütün balaca qızlar kimi gəlinciklərlə oynamış, güllü-çiçəkli çəmənlərdə gəzərək, öz ömrünün çəhlimlərini açmışdı.

Haqqında söhbət açmaq istədiyim Çiçək həkim də günümüzün qəhrəmanlarındandır.

Əhmədova Çiçək Məmməd qızı 1971-ci il avqustun 25-də Azərbaycanın Qax rayonunda anadan olmuşdur.

1978-1988-ci illərdə Bakı şəhəri Nəsimi rayonu 240 saylı tam orta məktəbdə oxumuşdur.

1988-ci ilin aprelindən Akademik M.A.Qasımov adına Respublika Klinik Xəstəxanasında kiçik tibb bacısı kimi iş fəaliyyətinə başlamışdır.

1991-ci ildə 1 saylı tibb məktəbinin tibb bacısının işi fakültəsinin axşam şöbəsinə daxil olmuş, 1994-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1993-cü ildə RKX-nin rəhbərliyinin göstərişi ilə Türkiyənin Ankara şəhərində "Orqan naklı və Yanık tedavi" xəstəxanasında "Hemodializ tibb bacısının işi" üzrə kurs keçərək, sertifikatla təltif olunmuşdur. 1995-2001-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsində oxumuşdur. 2002-ci ildə internatura keçmişdir. 2002-ci ildən "Medservis" özəl tibb mərkəzində hemodializ şöbəsində həkim, sonra şöbə müdiri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə Türkiyədə Başkənd Universitet Klinikasında vaxtaşırı stajer kimi işləmişdir (2004, 2006, 2007-ci illər). Moskva, Sankt-Peterburq, Antalya, İzmir, İstanbul, Roma şəhərlərində keçirilmiş nefroloji konfranslarında iştirak etmişdir. 2009-cu ilin aprelindən Səhiyyə Nazirliyinin tövsiyəsi ilə "Azərsutikinti" xəstəxanasının hemodializ şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Hal-hazırda "Nizami" tibb mərkəzi olaraq, "Azərsutikinti" xəstəxanasının direktor müavini vəzifəsini icra edir. Xroniki böyrək çatışmazlığından əziyyət çəkən şəxslərə tibbi xidmətlərin (hemodializ və ya periton dializi) təşkili və təkmilləşdirilməsi Komissiyasının sədridir.

2012-ci ildə iş göstəricilərinə və tibb işçilərinin peşə bayramı münasibətilə Səhiyyə Nazirliyi tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur.

Çiçək xanım Beynəlxalq Nobel İnformasiya Mərkəzinə tibb eksperti seçilmiş ilk qadındır.

Fəaliyyəti ərzində bir beynəlxalq, üç yerli tibbi nəşriyyatda tibbə aid məqalələri dərc olunmuşdur. MDB məkanında ilk dəfə hemodializdə müalicədə olan qadın xəstədə hamiləliyin tərkibi, əvəzedici böyrək müalicəsinin aparılma üsul və qaydaları ilə sağlam oğlan uşağının doğuşu ilə nəticələnən iş və müşahidələr aparmışdır. İş yerində onlarla orta tibb işçilərinin, gənc həkimlərin peşəkar işçi olmalarına kömək etmişdir. Onun dəstəyi ilə iki tibb bacısı Türkiyə Başkənt Universiteti Klinikasında hemodializ üzrə kurs keçmişlər.

Xəstələrə şəfalı əllərini uzadan Çiçək xanım dializlə bağlı xəstəxanaya müraciət edən bütün xəstələrə ana kimi qayğı göstərir, onların sağlamlıqlarının az müddətdə bərpa olunmasına çalışır. Bir sözlə, Çiçək xanım sanki fitrətən həkim olmaq üçün dünyaya göz açıb. Təsadüfi deyildir ki, o, işlədiyi kollektivin və xəstələrin dərin hörmətini və məhəbbətini qazanmışdır.

Bu, bir həqiqətdir ki, insan öz peşəsinin vurğunu olduğu zaman heç bir çətinlik onu qorxutmur. Öz peşəsinə ürəkdən bağlı olan Çiçək xanıma çiçək kimi təravətli qalmasını, arzularının daim çiçək açmasını arzulayırıq.



Bəybala Ələsgərov,
Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse-prezidenti,
tarix elmləri doktoru

Dr. Mənsumə Talıbova: İnsult - müalicəsi ən qısa müddətdə edilməli olan xəstəliklərdəndir

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il dünya əhalisinin hər 1000 nəfərinə düşən insultların sayı 1-4 arasında dəyişir. Ölüm səbəbinə görə insult dünyada ürək-damar xəstəliklərindən sonra ikinci yerdədir.

İnsultların yarısı 70 yaşdan yuxarı insanlarda inkişaf edir.



Bütün dünyada olduğu kimi, xəstəliyin get-gedə cavanlaşması son vaxtlar Azərbaycanda da müşahidə edilir. İnsultun insanlar arasında belə yayılmasının səbəblərini araşdırmaq üçün suallarımızı Mərkəzi Gömrük Hospitalının nevroloqu, doktor Mənsumə Talıbovaya ünvanladıq.

- Mənsumə həkim, işemik insult haqqında nə deyə bilərsiniz?

- İşemik insult beyin qan axınının kəskin pozulması, damar, ürək və ya qan xəstəlikləri ilə bağlı, tromboz və ya emboliya ilə əlaqədar beynin müəyyən bir bölgəsində kifayət qədər qan təchizatının çatışmazlığı nəticəsində beynin ocaqlı zədələnməsidir. 24 saatdan artıq davam edən və ya bir sutka ərzində ölümlə nəticələnən nevroloji simptomların kəskin inkişafı ilə xarakterizə olunan sindromdur.

İnsult əksər hallarda bədənin sağ və ya sol yarısında - ətraflarda uyuşma, qəfil zəiflik, üzün assimmetriyası, huşun, nitqin və görmənin pozulması, başgicəllənmə ilə özünü göstərir. Diaqnoz klinik, laborator, tomoqrafik və damar müayinələrinin nəticələri əsasında qoyulur.

- Son vaxtlar işemik insult hallarının artma səbəbləri hansılardır?

- İşemik insultun əsas səbəbləri ekologiyanın çirkləndirilməsi, keyfiyyətsiz qida məhsullarının, fast-foodların qəbulu, oturaq həyat tərzi, fiziki aktivliyin az olması, yüksək qan təzyiqi olduqda buna fikir verməmək və müalicə almamaq, stress hallarının gündəlik həyatımızda artması və sairdir.

- İnsultun əlamətləri hansılardır? İnsanlar səhhətlərində hansı narahatlığı hiss etdikdə həkimə müraciət etməlidir?

- İnsultun əlamətlərinə bir qolda və ya ayaqda, xüsusən də bədənin yalnız bir tərəfində ani uyuşma və zəiflik, ani qarışıqlıq, danışmaq və anlamaqda çətinlik çəkmək, bir və ya hər iki gözdə ani görmə itkisi, ani və səbəbi bilinməyən kəskin baş ağrısı, ani gəzinti çətinliyi, başgicəllənmə, tarazlıq və koordinasiya itkisi aiddir. Bu pozuntulardan narahatlıq hiss etdikdə, dərhal həkimə müraciət olunmalıdır.

- İnsultun risk faktorları barədə nə deyə bilərsiz?

- Yüksək qan təzyiqi, şəkərli diabet, yüksək xolesterol səviyyəsi, bilinən ürək ritm pozğunluğu olan şəxslər risk qrupuna aiddirlər. Həmçinin, siqaret çəkmək, oturaq həyat tərzi, çəkisi çox olan, yanlış yemək vərdişləri olan şəxslər də risk qrupundadırlar.

İnsult xəstələrinin 75%-i 60 yaşında olan şəxslərdir. 60 yaşdan sonra hər 10 ildən bir bu risk iki dəfə artır.


Bu xəstəliyə 55 yaşdan yuxarı kişilərdə qadınlara nisbətən daha çox rast gəlinir. Yaş artdıqca, qadınlarda insult nisbəti artır. Əvvəlki işemik insultdan və keçici bir insultdan sonra yeni bir insult riski olduqca yüksəkdir.

- İşemik insultun müalicəsi varmı? Vaxtında müraciət etdikdə bu xəstəlikdən yan keçmək mümkündürmü?

- İnsult müalicəsi ən qısa müddətdə edilməli olan xəstəliklərdəndir. Çünki beyin damarı tıxandıqda beyin toxumasının zədələnməsi baş verir. Müalicə etməyi gözlədiyiniz müddətdə bu zərər daha da genişlənir. Tıxanmış damar böyük olduqda və müalicə müddəti uzandıqda beynin zədələnməsi daha da artır. Tıxanan damarın qısa müddətdə açılması bütün bunların, həmçinin beyin toxumasındakı ziyanın genişlənməsinin qarşısını alır. İnsult nəticəsində beyin toxumasına dəyən ziyanı nə qədər çox məhdudlaşdıra bilsək, o qədər tez və daha sürətli bərpa edə biləcəyik. Bu səbəbdən insultdan danışarkən, sürətli müalicə erkən və sürətli bərpa deməkdir.

- Maraqlı müsahibəyə görə təşəkkür edirik.

Müsahibəni apardı:
Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının
PR mütəxəssisi



Azəri Light və Brent markalı neftin bir barelinin 18-24 may tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)

İqtisadçı ekspert Maqsud Quliyev

ALLAH RƏHMƏT ELƏSİN

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə Milli Məclisin Komitələrin və komissiyaların işinin təşkili şöbəsinin müdir müavini İlqar Əliyevə anası
GÜLZAR ƏLİYEVANIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov,
Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov,
Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov,
Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov,
Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500